

**Paytaxtımızda Bakı Beynəlxalq turizm filmləri festivalı keçirilmişdir. Bu münasibətlə təşkil olunan açılış mərasimində çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirmişdir ki, beynəlxalq turizm filmləri festivalının Azərbaycanda artıq ikinci dəfə gerçəkləşdirilməsi çox sevindirici haldır.**

# Festivala maraq artır

"Birinci festivalın keçirildiyi vaxtdan o qədər də böyük zaman ötməyib. Bu müddət ərzində dünyanın müxtəlif ölkələrində bir çox festivallar təşkil edilib. Amma buna baxmayaraq, Bakıda keçirilən festivala maraq son dərəcə böyük olub. Təsadüfi deyildir ki, ikinci turizm filmləri festivalına birincidən 2 dəfə çox film təqdim edilib. Bu, o deməkdir ki, həm ölkələr, həm də yaradıcı insanlar Bakıda belə bir festivalın keçirilməsinə öz dəstəyini verirlər".

Azərbaycanda turizm sahəsinin böyük sürətlə inkişaf etdiyini diqqətə çatdıran nazir vurğulamışdır ki, bu, dövlət başçısının şəxsən öz nəzarəti altında baş verir: "Respublikamızın turizm imkanları bütün vasitələrdən istifadə edilməklə dünya ictimaiyyətinin diqqətinə çatdırılır.

Bu gün müxtəlif ölkələrdən yayımlanan nüfuzlu televiziya kanallarında, beynəlxalq sərgilərdə, tədbirlərdə Azərbaycanın turizm potensialı haqqında geniş məlumatlar verilir. Amma kino sənəti digərlərindən vacibdir, çünki onun vasitəsilə insanların ürəyinə daha tez yol tapır və bu, estetik baxımdan dərin və mənalı anlayışların formalaşmasında, maraqlı təqdimatların keçirilməsində mühüm rol oynayır".

Əbülfəs Qarayev onu da bildirmişdir ki, mədəniyyət və turizm nazirliyi stukturuna daxil olan sahələrin vəhdətini artıq sübut edib və ölkəmizin turizm potensialının kino vasitəsilə təbliğatına böyük diqqət yetirir: "Bakıda ikinci dəfə keçirilən beynəlxalq turizm filmləri festivalı dediklərimə bir nümunədir. Düşünürəm ki, bu mərasim davamlı olacaqdır. Münsiflər heyətinə səmərəli, ədalətli və bizim ümumi işimizə xidmət edən qərarlar vermələrini arzulayıram".

Sonra II Bakı Beynəlxalq turizm filmləri festivalı çərçivəsində "Ölkə, region, şəhər" mövzusunda qısametrajlı filmlər nümayiş olunmuşdur.




Məlumat üçün bildirək ki, mərasimə bütövlükdə 55 ölkədən 405 film göndərilmiş, onlardan müsabiqə proqramına 6 kateqoriya üzrə 31 ölkədən 68 film daxil edilmişdir. Burada Azərbaycanın 7 filmi də yer almışdır.

**Üç gün davam edən festivalda nümayiş olunan əsərlərə Nizami Kino Mərkəzində, eləcə də axşam seanslarında Dənizkənarı Milli Parkda baxılmışdır.**